

# Vətəndaş cəmiyyəti fəalları islahatları dəstəkləyirlər

***Bu günlərdə Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi barədə mühüm qərar qəbul edilib. Bu hadisə ölkə vətəndaşları, alim və ziyalılar, vətəndaş cəmiyyəti fəalları tərəfindən dərin məmnunluq hissi ilə qarşılanıb. "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondunun rəhbəri Sərraf Orucov bu barədə fikirlərini bölüşərkən dedi:***

– Son vaxtlar ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm dəyişiklikləri hamı kimi, mən də diqqətlə izləyirəm. Hesab edirəm ki, parlamentin özünü buraxması, ölkədə növbədənkənar seçkilərin keçirilməsi barədə qərar düzgün və ədalətlidir.

Reallıq budur ki, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi islahatlar kursu dövlət idarəetmə sisteminin bütün istiqamətlərini əhatə etmişdir. Hakimiyyətin digər qolları kimi, qanunvericilik orqanının fəaliyyəti həm Azərbaycanın çağdaş inkişaf səviyyəsinə, həm də müasir dövrün çağırışları və qarşıda duran vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə adekvat olmalıdır.

Etiraf etmək lazımdır ki, Milli Məclisin bugünkü tərkibi islahatlar kursunun dinamikasına uyğun deyildi. Qanunvericilik təşəbbüslərinin, rasional təkliflərin irəli sürülməsində süstlük müşahidə olunurdu.

İslahatların məqsədi müstəqil Azərbaycan dövlətinin qüdrətini daha da artırmaq, xalqımızın rifahını davamlı olaraq yaxşılaşdırmaqdır. Azərbaycanda azad, sivil vətəndaş cəmiyyəti formalaşıb. Təqdirəlayiq haldır ki, vətəndaş cəmiyyəti fəalları islahatları birmənalı olaraq dəstəkləyirlər.

İnanıram ki, ölkəmizdə azad, demokratik şəraitdə yeni seçkilər keçiriləcək və parlamentin yeni tərkibi qarşıya çıxan yeni çağırışları, cəmiyyətin gözləntilirini uğurla həll etmək iqtidarında olacaq. Bunun üçün Azərbaycan vətəndaşları da fəal olmalı, xalqımızın ən layiqli namizədlərinə səs verməlidirlər.

**Söhbəti qələmə aldı:**
**M.HACIXANLI,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.- 2019.- 4 dekabr. S. 3.